# Topçu qardaşım



Fədai QARAXANLI

**Fədai Qaraxanlı 1967-ci ildə Tovuz rayonunun Qaraxanlı kəndində dünyaya göz açıb. BDU-nun jurnalistika fakültəsini bitirib. Bir çox mətbu orqanlarda çalışıb. Vətənsevər bir insan kimi Birinci Qarabağ savaşında da iştirak edib. O, təkcə publisistik yazıları ilə deyil, həm də şeirləri ilə tanınır. Bu gün Fədai bəy növbəti dəfə şeirləri ilə oxucuların görüşünə gəlib.**

## O, təyinatlı

*(Bu şeir məğrur generalımız Hikmət Mirzəyev və Tehran Mənsimov kimilər başda olmaqla cəmi xüsusi təyinatlı döyüşçülərin şərəfinə həsr olunub)*

Bir gücə möhtacdı Vətənim illər,
Qaytardı gücünü o, təyinatlı.
Yurdumuz tapdandı gör neçə illər,
Qurtardı torpağı o, təyinatlı.

Yurdumun yorulmaz vuran qoludu,
Varlığı silahdı, sağlı, soludu.
Vətən sevdalıdı, qəlbi doludu,
Vücudu zəhimli o, təyinatlı.

Düşmənə nifrəti gözündən saçır,
Adicə adından bir ordu qaçır.
Keçilməz cəbhədə cığırlar açır,
Beş-altı nəfərlə o, təyinatlı.

Bəzən duman olur gecələr kimi,
Hərdən daşa dönür qayalar kimi.
Hərdən də yamyaşıl ağaclar kimi,
Görünməz gözlərə o, təyinatlı.

Harda uğur varsa, nəfəsi orda,
Bütün cəbhələrdə, soyuqda, qarda.
Yaralı dostunu qoymayır darda,
Çiynində daşıyır o, təyinatlı.

Bir tarix yazdınız Şuşada sizlər,
Qayaya həkk oldu o qanlı izlər.
İndi bütün dünya sizləri izlər,
O qürur yerimiz o, təyinatlı.

## Topçu qardaşım

Tanrı qüvvət versin sənin qoluna,
Gözünə, zəkana, topçu qardaşım.
Unutma Xocalı, Kərkicahanı,
Yağdır mərmiləri, topçu qardaşım.

Atəşkəs adına uyma bir anda,
Düşmən kələyidir san həmin anda.
Mərhəmət gözləmə bu çətin anda,
Od ələ göylərdən, topçu qardaşım.

Barıtın qoxusu, hisi canında,
Dığaya nifrətin coşsun qanında.
Külünü göylərə sovur anında,
Qoyma nəfəs dərə, topçu qardaşım.

Sahibsiz qalmışdı evlər, obalar,
Soyumuş, paslanmış isti sobalar.
Ümidi kəsilmiş xəstə qocalar,
Dayanma, vur deyir, topçu qardaşım.

Həsrətlə boylanır dağlar, dərələr,
Çaylarda saralmış yaşıl tərələr.
Bizləri gözləyir geniş bərələr,
Vur, topçu qardaşım, topçu qardaşım.

## Yanan oğullar

Cavan canlarını qurban etdilər,
Vətənin eşqiylə yanan oğullar.
Övladı Yurdunda yaşasın deyə,
Döyüşə yüyürdü yanan oğullar.

Keçilməz qayadan, dağlardan aşdı,
Ər kimi döyüşdü, səngərlər aşdı.
Qəfil mərmilərlə oda bulaşdı,
Alovlar içində yanan oğullar.

Düşmənə dar etdi bərəni, bəndi,
Dığanın qurduğu məkirli fəndi.
Qurtardı yurdları, yüzlərcə kəndi,
Tanklarda sıxışıb yanan oğullar.

Gözündə heç oldu o şirin canı,
Vətənin yolunda töküldü qanı.
Ey gələn nəsillər, daima tanı,
Sizləri qorudu yanan oğullar.

Üstündə gəzdiyin bu şanlı torpaq,
Səndən üz çevirər, sən olsan qorxaq.
Göyərməz ağacda bir yaşıl yarpaq,
Olmasa Vətəndə yanan oğullar.